4 dekabr 2018-ci il

CEPEJ (2018)25

**ƏDALƏT MÜHAKİMƏSİNİN SƏMƏRƏLİLİYİ ÜZRƏ AVROPA KOMİSSİYASI (CEPEJ)**

## Mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti
## CEPEJ-in mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsi

# Standart mediasiya formaları

*CEPEJ-in 31-ci plenar iclasında qəbul edilmişdir, Strasburq, 3-4 dekabr 2018-ci il*

*Bu tərcümə Avropa İttifaqı və Avropa Şurasının maliyyə dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə yalnız Avropa Şurası məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir.*

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

Bu sənəd “CEPEJ-in mediasiyaya dair rəhbər prinsipləri”nə (1. Mövcudluq) uyğun olaraq hazırlanmışdır.

Aşağıdakı formaların hazırlanmasında məqsəd mediasiya prosesinə başlayarkən, barışıq sazişinə razılıq verərkən, rəyləri toplayarkən və sorğu anketi vasitəsilə tərəflərin məmnunluq dərəcəsini qiymətləndirərkən istifadə ediləcək standart mediasiya formaları təqdim etməklə mediasiya xidməti göstərənlərə və üzv dövlətlərə kömək etməkdir.

Aşağıdakı nümunəvi formalarda və müxtəlif müddəalarda istifadə edilən adlar və anlayışlar praktikada milli qanunvericilik nəzərə alınmaqla uyğunlaşdırıla bilər.

Bu sənədə aşağıdakı formalar daxil edilmişdir:

- Mediasiyaya dair nümunəvi müqavilə
- Mediasiya vasitəsilə barışıq haqqında nümunəvi saziş
- Mediasiyaya dair rəylərin öyrənilməsi üçün nümunəvi sorğu anketi
- Müqavilənin mediasiya haqqında nümunəvi maddəsi

Bu sənəd gələcəkdə genişləndirilə və təkmilləşdirilə bilər. Hazırkı sənədi təkmilləşdirmək məqsədilə CEPEJ-GT-MED bu sənəddən istifadə etməyi öhdəsinə götürən mediasiya xidməti göstərənləri öz rəylərini CEPEJ Katibliyinə çatdırmağa dəvət edir.

# Mediasiyaya dair nümunəvi müqavilə

_______________ tarixli bu müqavilə

**A tərəfi**

............................................................................................................................................ ,

(*şirkətin və ya hüquqi şəxsin adı*)

**B tərəfi**

............................................................................................................................................

(*şirkətin və ya hüquqi şəxsin adı*)

(hər ikisi birlikdə "**Tərəflər**" adlandırılacaq)

və

**Mediator / Mediasiya xidməti göstərən**[1]

............................................................................................................................................

(*mediasiya xidməti göstərənin adı*)

arasında

_______________ (*gün və saat*) tarixində

_______________ (*yer*)

keçiriləcək mediasiya prosesi ("**Mediasiya**") ilə əlaqədar bağlanmışdır.

---

[1] Mediasiya haqqında bu müqavilə qüvvədə olan qaydalara uyğun olaraq tərəflər ilə tək mediator (və ya müştərək mediatorlar) və ya mediasiya xidməti göstərən subyekt arasında imzalana bilər.

Bu Müqavilәni imzalayanlar aşağıdakılara razılıq verirlәr:[2]

**Mediasiya**

1. Tәrәflәr mübahisәlәrini mediasiya yolu ilә hәll etmәk üçün bacardıqları qәdәr sәy göstәrmәyә razılaşırlar. Mediator bu Müqavilәyә uyğun olaraq Mediasiyanı aparmağa, Tәrәflәr isә bu Müqavilәyә uyğun olaraq Mediasiyada iştirak etmәyә razılıq verirlәr.

**Sәlahiyyәt vә status**

2. Hәr bir Tәrәfin adından bu Müqavilәni imzalayan şәxs hәmin Tәrәfi vә hәmin Tәrәfin adından Mediasiyada [vә ya onun hәr hansı bir hissәsindә] iştirak edәn bütün digәr şәxslәri bu Müqavilәnin şәrtlәrinә, elәcә dә nail olunan hәr hansı hәllin şәrtlәrinә әmәl etmәyә mәcbur etmәk sәlahiyyәtinә malik olduğuna tәminat verir.

3. Hәr hansı hәrәkәt vә ya hәrәkәtsizliyin dәlәduzluqdan vә ya qәsdәn hüquqa zidd davranışa yol vermәkdәn irәli gәldiyi sübuta yetirilmәdikdә, Mediator Mediasiya ilә bağlı hәmin hәrәkәt vә ya hәrәkәtsizliyә görә Tәrәflәr qarşısında mәsuliyyәt daşımır.

**Konfidensiallıq vә hüquqi statusa xәlәl gәtirmәmәk**

4. Mediasiyada iştirak edәn hәr kәs razılaşır ki:

4.1 Tәrәflәrin yazılı şәkildә başqa cür razılaşdığı vә yaxud mәlumatların açıqlanmasının qanunla tәlәb olunduğu vә ya barışıq sazişinin şәrtlәrini yerinә yetirmәk vә ya yerinә yetirilmәsini tәmin etmәk üçün vә yaxud bütün sığortaçıları, sığorta brokerlәrini vә/vә ya mühasiblәri xәbәrdar etmәk üçün mәlumatların açıqlanmalı olduğu hallar istisna olmaqla, Mediasiyadan irәli gәlәn vә ya onunla әlaqәdar yaranan bütün mәlumatları, o cümlәdәn hәr hansı hәll şәrtlәrini konfidensial saxlayacaq; vә

4.2 qәbul edir ki, Tәrәflәr vә Mediator arasında ötürülәn bütün bu cür mәlumatların, hansı formada çatdırılmasından asılı olmayaraq, hәr hansı Tәrәfin hüquqi statusuna xәlәl gәtirmәmәsi barәdә razılıq әldә edilib vә qanunla başqa cür nәzәrdә tutulmayıbsa, onlar hәr hansı hakimә, arbitrә vә ya hәr hansı hüquqi vә ya digәr formal proses çәrçivәsindә qәrar qәbul edәn digәr şәxsә sübut kimi tәqdim edilә vә ya açıqlana bilmәz.

5. Әgәr Tәrәf hәr hansı mәlumatı Mediasiya prosesindәn әvvәl, proses zamanı vә ya ondan sonra Mediatora konfidensial qaydada açıqlayarsa, Mediator hәmin mәlumatı açıqlayan Tәrәfin razılığı olmadan onu hәr hansı digәr Tәrәfә vә ya şәxsә açıqlamayacaq.

6. Tәrәflәr başa düşürlәr ki, Mediator hüquqi vә ya digәr professional mәslәhәtlәr vermir vә bu Mediasiya ilә bağlı Mediatora qarşı heç bir iddia irәli sürmәyәcәklәri ilә razılaşırlar. Tәrәflәr Mediatorun şahid qismindә çağırılması üçün vәsatәt vermәyәcәklәr vә mübahisәlәrindәn irәli gәlәn vә ya onunla әlaqәdar yaranan hәr hansı mәhkәmә çәkişmәlәrindә, arbitrajda vә ya digәr rәsmi prosesdә Mediasiyaya aid hәr hansı qeydi vә ya qeydlәri sübut kimi tәqdim etmәsini tәlәb etmәyәcәklәr; Mediator isә hәr hansı belә prosesdә şahid, ekspert, arbitr vә ya mәslәhәtçi qismindә çıxış etmәyәcәyinә razılıq verir. Әgәr hәr hansı Tәrәf belә bir vәsatәt verәrsә, hәmin Tәrәf bu cür vәsatәtә qarşı müqavimәt göstәrmәyә vә/vә ya cavab vermәyә Mediatorun çәkdiyi hәr hansı xәrclәrin әvәzini tam hәcmdә ödәyәcәk, o cümlәdәn Mediatorun bu cür müqavimәt vә/vә ya cavab üçün sәrf etdiyi vaxtı Mediatorun standart saat tarifi üzrә kompensasiya edәcәkdir.

---

[2] Bu, nümunәvi sәnәddir vә zәruri hallarda buraya digәr müddәaların әlavә edilmәsi nәzәrdә tutula bilәr, mәsәlәn: mediasiya prosesinin dili (dillәri), mediasiya prosesinin yeri, vәkillәrin vә digәr üçüncü tәrәflәrin mediasiya prosesindә iştirakı, mediasiya prosesinin son tarixi, mediatorun riayәt etmәli olduğu etik qaydalar.

**Barışıq sazişinə aid rəsmiyyətlər**

7. Mediasiya yolu ilə əldə edilmiş hər hansı barışıq sazişinin şərtləri yazılı şəkildə müəyyən edilməyənə və Tərəflərin hər biri tərəfindən və ya onun adından imzalanmayana qədər hüquqi qüvvəyə malik olmayacaq.

**Mediasiya xidmətinin haqqı və Mediasiya xərcləri**

8. Tərəflər bu Müqavilə bağlandığı tarixdə qüvvədə olan, Mediatorun iş fəaliyyətinin şərtlərində (o cümlədən mediasiya prosesi onun üçün ayrılmış saatlardan çox davam etdiyi təqdirdə əlavə saatlara görə ödəniş barədə hər hansı müddəada) müəyyən edilən Mediatorun/Mediasiya xidməti göstərən subyektin xidmət haqlarına və xərclərinə ("Mediasiya xidmətinin haqqı") cavabdehlik daşıyacaq.

9. Tərəflər və Mediator tərəfindən yazılı şəkildə başqa cür razılaşdırılmayıbsa, hər bir Tərəf Mediaysia haqqının ödənişini bərabər şəkildə bölüşdürməyə, həmçinin Mediasiyaya hazırlaşma və Mediasiyada iştirakla bağlı özünün hüquqi və digər xərclərini ("hər bir Tərəfin Hüquqi xərcləri") qarşılamağa razılaşır. Lakin bununla yanaşı, hər bir Tərəf razılaşır ki, hər hansı məhkəmə və ya tribunal həm Mediasiya haqqını, həm də hər bir Tərəfin Hüquqi xərclərini hər hansı məhkəmə və ya arbitraj işi üzrə icraat ilə bağlı xərclər kimi hesablaya bilər, bu şərtlə ki, həmin məhkəmə və ya tribunal, Mediasiya prosesinin mübahisənin barışıq yolu ilə həll olunması ilə nəticələnib-nəticələnməməsindən asılı olmayaraq, xərcləri bu şəkildə qiymətləndirmək və ya onlarla bağlı qərar vermək səlahiyyətinə malik olsun.

**Mediasiyanın hüquqi statusu və nəticələri**

10. Bu Müqavilə [Üzv dövlətin] qanunvericiliyi ilə tənzimlənir və [Üzv dövlətin] məhkəmələri bu Müqavilədən və Mediasiyadan irəli gələn və ya onunla əlaqədar olan hər hansı məsələləri həll etmək üçün müstəsna yurisdiksiyaya malikdir.[3]

11. Mübahisənin Mediasiyaya yönləndirilməsi İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsində nəzərdə tutulmuş heç bir hüquqa təsir etmir və Tərəflərin mübahisəsi mediasiya yolu ilə həll olunmazsa, bu onların ədalətli məhkəmə araşdırması hüququna təsir göstərmir.

---

[3] Dövlətin qanunvericiliyində bu nəzərdə tutulubsa və həmin qanunvericilik buna icazə verirsə, mediasiya nəticəsində qəbul edilən qərar icra sənədi (*acte authentique exécutoire*) qüvvəsinə malikdir.

**Bu Müqavilədə edilmiş dəyişikliklər**

Bu Müqavilədə edilmiş razılaşdırılmış dəyişikliklər aşağıda göstərilmişdir:

______________________________________________________________________

**İmzalanmışdır:**

A tərəfi

..........................................................................................................................................
[İmza və ad]

B tərəfi

..........................................................................................................................................
[İmza və ad]

Mediator

..........................................................................................................................................

# Mediasiya vasitəsilə barışıq haqqında nümunəvi saziş[1]

Tarix............................................................................................................................

**Tərəflər**

A tərəfi

............................................................................................................................

(*şirkətin və ya hüquqi şəxsin adı*)...................................................................................

B tərəfi

............................................................................................................................

(*şirkətin və ya hüquqi şəxsin adı*)...................................................................................

C tərəfi və s.

(hamısı birlikdə "**Tərəflər**" adlandırılacaq)

**Tarixçə**

- Tərəflər arasında ____________________________ [qısa təfərrüatları göstərin] ilə bağlı mübahisə ("Mübahisə")[2] var [və ona məhkəmə/arbitraj tərəfindən məhkəmə/arbitraj qaydasında baxılır ("İddia")];[3]

- Mübahisə Tərəflər və ____________________________ ("Mediator") arasında bağlanmış müqavilə ("Mediasiyaya dair müqavilə") əsasında aparılan mediasiyanın ("Mediasiya") predmeti olmuşdur;

- Tərəflər Mübahisəni aşağıda göstərilən şərtlərlə həll etmək ("Barışıq sazişi") barədə razılığa gəliblər;

- [1-ci mətnaltı qeydə baxın və hər hansı əsas faktları və ya məlumatları göstərin]

---

[1] Bu Nümunəvi saziş (və ona əlavə olunmuş razılıq haqqında qərar) yalnız tövsiyə xarakteri daşıyır. Ona əsaslanan hər hansı saziş aid olduğu həll razılaşmasının konkret hallarına və hüquqi tələblərinə uyğunlaşdırılmalıdır. Mümkün olduqda hər hansı belə saziş hər bir tərəfin vəkili tərəfindən hazırlanmalı/təsdiq edilməlidir. Mediator bəzən tərəflərə məqbul şərtlərin hazırlanmasında köməklik göstərə bilsə də, sazişin hazırlanmasına görə məsuliyyət daşımır və heç vaxt sazişin tərəfi olmamalıdır. Bu sazişin tərəfləri milli qanunvericiliyin tələb etdiyi xüsusi formaya, o cümlədən müəyyən növ müqavilələrin notarial təsdiqi və/və ya qeydiyyatı üçün xüsusi tələblərə və digər tələblərə riayət etmək vəzifəsindən azad edilmir.

[2] Baxmayaraq ki faktoloji məlumatları sadalamaq vacib deyil, həqiqətə uyğunluğu barışıq sazişinin şərtləri üçün həlledici əsas təşkil edən hər hansı faktlar və məlumatlar sonradan hər hansı yanlış fakt və məlumat iddialarını aradan qaldırmaq və ya ən azı minimuma endirmək üçün burada göstərilməlidir.

[3] Məhkəmə və ya arbitraj prosedurları olmadıqda, bu mətni və 4-cü bəndi buraxın.

**Barışıq sazişinin şərtləri**

Aşağıdakılar barədə razılıq əldə edilmişdir:

1. A ____________________ tarixindən [günü və saatı göstərməli] gec olmayaraq B-yə ____________________ [təhvil veriləcək əmlakı, malı və s. göstərməli] təhvil verəcək.[4]

2. B ____________________ tarixindən [günü və saatı göstərməli] gec olmayaraq A-ya

aşağıdakı hesaba birbaşa bank pulköçürməsi vasitəsilə ___________ məbləğində ödəniş edəcək:

________________________________ [bankın rekvizitləri]

________________________________ [hesabın nömrəsi]

3. [*Digər şərtlər*] .......................................................................................................

4.
   a. İddia üzrə icraat dayandırılır və tərəflər əlavə edilmiş qərarın şərtləri ilə razılaşırlar [*əlavə edilmiş qərar formasına baxın*].[5]

   b. **YAXUD** [A/B] iddiadan imtina edir, [B/A] isə bunun müqabilində iddia ilə bağlı çəkdiyi xərcləri [A/B-dən] tələb etməyəcəyini öhdəsinə götürür.

   c. **YAXUD** [A/B-nin] [qarşılıqlı] iddiası üzrə qərar qəbul edilir ki, [B/A] [A/B]-nin xərclərini standart kompensasiya məbləği əsasında [A/B-yə] ödəməlidir, əgər standart kompensasiya məbləği razılaşdırılmayıbsa, ətraflı qiymətləndirmə aparılacaq.

   d. **YAXUD** İddia təmin edilmir və xərclərlə bağlı heç bir qərar qəbul edilmir.

5. Bu Saziş Tərəflərin [və Tərəflərin hər hansı törəmə müəssisələrinin] bir-birinə qarşı olan hər hansı iddia tələblərinin tam və yekun həllidir [*belə bir bəndi Müqaviləyə daxil etməzdən əvvəl Tərəflər arasında güzəştə gedilməsi mümkün olmayan hər hansı həll olunmamış məsələnin qalıb-qalmadığını diqqətlə yoxlamaq vacibdir*].

6. Bu Saziş Tərəflər arasında [Mübahisəyə aid olan bütün məsələlərlə bağlı] bütün əvvəlki razılaşmaları əvəzləyir, yalnız Mediasya haqqında müqavilənin hələ də qüvvədə qalan şərtləri, o cümlədən mediasiya prosesinin konfidensiallığı, Tərəflərin Mediatoru ifadə verməyə çağırmamaq öhdəliyi və Mediatorun məsuliyyəti barədə şərtlər istisna təşkil edir.[6]

---

[4] Mümkün qədər konkret məlumatlar daxil edin, məsələn, necə, nə vaxt və s.

[5] Bu, məhkəmə icraatının aparıldığı hallarda barışıq yolu ilə həllin ən geniş yayılmış üsuludur: heç bir məhkəmə icraatı olmadıqda, barışıq sazişi, əgər bütün tərəflər onun məcburi hüquqi qüvvəyə malik olmasını təmin etmək niyyətindədirsə, iddia vasitəsilə təmin edilə bilən müqavilə qüvvəsinə malikdir; əgər transsərhəd mübahisəsi varsa və bütün tərəflər razılaşırsa, mediasiya qərarının məcburi icrası üçün icra sənədinin verilməsindən ötrü məhkəməyə müraciət edilə bilər.

[6] Bu bənd yalnız əvvəlki razılaşmalar olduqda lazımdır.

7. Bu Saziş ilə bağlı hər hansı mübahisə yaranarsa, Tərəflər mübahisənin həlli üçün hər hansı digər vasitəyə müraciət etməzdən əvvəl onu mediasiya yolu ilə həll etməyə çalışacaqlar. Hər hansı belə mediasiya prosesinə başlamaq üçün Tərəf Mediatora yazılı bildiriş verməlidir. Mediasiya haqqında müqavilənin şərtləri mümkün olan dərəcədə bu cür sonrakı mediasiya prosesinə də şamil olunacaq. Mediatora bildiriş göndərildiyi tarixdən [28] gün ərzində belə mübahisənin məcburi hüquqi qüvvəyə malik həllinə nail olunmazsa, tərəflərdən hər hansı biri [məhkəmə icraatına başlaya bilər/mübahisəni arbitraja çıxara bilər].

8. Bu Sazişin hər hansı şərtlərinin tətbiqi və yerinə yetirilməsi üçün zəruri olan hallar və Tərəflərin yazılı şəkildə başqa cür razılaşdırdığı hallar istisna olmaqla, Tərəflər bu Sazişin şərtlərini konfidensial saxlayacaq və hər hansı dolayı və ya gizli məqsədlər üçün istifadə etməyəcəklər.

9. Bu Saziş [Üzv dövlətin] qanunvericiliyinə uyğun olaraq tənzimlənir, təfsir edilir və qüvvəyə minir. [Üzv dövlətin] məhkəmələri bu Sazişdən irəli gələn və ya onunla əlaqədar yarana biləcək hər hansı iddia, mübahisə və ya fikir ayrılıqlarını həll etmək üçün müstəsna yurisdiksiyaya malikdirlər.[7]

**İmzalar:**

________________________ adından:[8]

_______________

________________________ adından:[9]

_______________

[7] Tərəflərin eyni ölkədə olduğu və sazişin predmetinin bir ölkəyə aid olduğu hallarda adətən bu bənd tələb olunmur.

[8] İmzalayan tərəf fiziki şəxsdirsə, "adından" sözünə ehtiyac yoxdur.

[9] İmzalayan tərəf fiziki şəxsdirsə, "adından" sözünə ehtiyac yoxdur.

# Mediasiyaya dair rəylərin öyrənilməsi üçün nümunəvi sorğu anketi

Hörmətli müştəri,

Bu sorğu anketi mediasiya xidmətlərimizin effektivliyini qiymətləndirməyə kömək etmək üçün hazırlanmışdır. Sizin rəylərinizi eşitmək istəyirik və aşağıdakı suallara cavab verməklə bizə kömək etdiyiniz üçün çox minnətdar olarıq. Bütün cavablar konfidensialdır və cavablarınız bizə bütün müştərilərimiz üçün xidməti təkmilləşdirməyə kömək edəcək.

1. Bu işdə sizin rolunuz hansı idi:
   - ☐ [İddiaçı] - Mən işi məhkəməyə vermişdim
   - ☐ [Cabavdeh] - Mənə qarşı iddia qaldırılmışdı
   - ☐ [İddiaçının] hüquq məsləhətçisi
   - ☐ [Cabavdehin] hüquq məsləhətçisi
   - ☐ Digər (lütfən göstərin):

2. Mediasiya xidməti haqqında necə öyrəndiniz?
   - ☐ Hüquq məsləhətçimdən
   - ☐ Hakimdən və ya məhkəmə personalından
   - ☐ Mübahisədəki qarşı tərəfdən
   - ☐ Məlumat bukletindən və ya plakatından
   - ☐ Hüquq məsləhət mərkəzindən
   - ☐ Televiziya, radio və ya sosial şəbəkələrdəki reklamlardan
   - ☐ Dostdan və ya qohumdan
   - ☐ Digər (lütfən göstərin):

3. Mediator/mediasiya xidməti ilə təmasınızın aşağıdakı aspektlərindən nə dərəcədə razı və ya narazı qaldınız?

| | Çox razı qaldım | Razı qaldım | Nə razı, nə də narazı qaldım | Narazı qaldım | Çox narazı qaldım |
|---|---|---|---|---|---|
| Xidmət haqqında alınmış yazılı məlumat | | | | | |
| Xidmətlə əlaqə saxlamaq nə dərəcədə asan idi | | | | | |
| Xidmətin mənə necə kömək edə biləcəyinin izahı | | | | | |
| Mediasiyanın lazımi qaydada təşkilinə mediatorun köməkliyi | | | | | |

4. Mediasiyanın aşağıdakı aspektlərindən nə dərəcədə razı və ya narazı qaldınız?

| | Çox razı qaldım | Razı qaldım | Nə razı, nə də narazı qaldım | Narazı qaldım | Çox narazı qaldım |
|---|---|---|---|---|---|
| İştirak etmək və fikirlərinizi bildirmək imkanınız | | | | | |
| Mediasiya üçün ayrılmış vaxt | | | | | |
| Mediatorun peşəkarlığı | | | | | |
| Mediasiya üçün şərait | | | | | |

5. 5. İş mediasiya vasitəsilə həll olundumu?
   - ☐ Hə – tam həllə nail olundu

- ☐ Yox – iş həll edilmədi
- ☐ Qismən – bəzi məsələlər həll olundu

6. Mediasiya razılaşmanızın icrası ilə bağlı çətinliklərlə üzləşmisinizmi?
   - ☐ Hə
   - ☐ Yox
   - ☐ Bilmirəm (və yaxud o hələ icra olunmayıb)

7. Mediasiyadan yenidən istifadə etməyə hazırsınızmı?
   - ☐ Hə
   - ☐ Yox
   - ☐ Bilmirəm

8. Mediasiya xidməti ilə bağlı hər hansı digər şərhləriniz varmı?

   …………………………………………………………………………………………………..

   …………………………………………………………………………………………………..

9. İstifadəçi müxtəlifliyinin monitorinqi məqsədləri üçün sizin haqqınızda bəzi əlavə məlumatların olması bizə kömək edərdi. Bütün məlumatlar konfidensialdır.

[Tələb olunarsa, müştərinin cinsi, yaşı, təhsili, etnik mənsubiyyəti və əlilliyi haqqında məlumat toplamaq üçün suallar daxil edin.]

10. Bu sorğu anketini doldurduğunuz üçün təşəkkür edirik. Fikirləriniz bizim üçün çox önəmlidir. Cavablar təhlil ediləcək və bütün sahələrdə qabaqcıl təcrübəni təbliğ etmək və bütün müştərilərimiz üçün xidməti daha yaxşı etmək üçün istifadə olunacaq.

11. Bu sorğu anketinin doldurulmasına göstərdiyiniz köməyə görə bir daha təşəkkür edirik.

# Müqavilənin mediasiya haqqında nümunəvi maddəsi

Tərəflər razılaşırlar ki, bu müqavilədən irəli gələn və ya onunla əlaqəli olan hər hansı mübahisə, fikir ayrılığı və ya tələb mediatorun köməyi ilə barışıq yolu ilə həllə nail olmaq cəhdi üçün mediasiya prosesinə təqdim edilməlidir. Tərəflərdən hər biri digər tərəfə mediasiya üçün yazılı sorğu ("Mediasiya sorğusu") təqdim etməklə və orada mübahisənin predmetini, tələb olunan yardımı və mediasiya xidməti göstərən subyekti və ya mediatoru göstərməklə mediasiyaya başlaya bilər.

Tərəflər tanınmış mediasiya xidməti göstərən subyekt və ya mediator haqqında birgə razılığa gələcəklər. Tərəflər Mediasiya sorğusunun verildiyi tarixdən etibarən 15 gün ərzində mediasiya xidməti göstərən subyekt və ya mediatorla bağlı razılığa gələ bilmədikdə, Tərəflərdən hər hansı biri [Üzv dövlətdə müəyyən edilmiş mediasiya xidməti göstərən subyektə və ya nümayəndəli mediasiya orqanına] mediasiya təyin edilməsi üçün sorğu verə bilər.

Mediasiya konfidensial qaydada və tərəflərin maraqlarına xələl gətirilmədən aparılacaq və hər bir tərəf mediasiya  xidmətinin haqqını bərabər paylarla ödəyəcək və öz xərclərini qarşılayacaq.

Mediasiya prosesinə şamil ediləcək mediasiya qaydaları razılaşdırılmış mediasiya xidməti göstərən subyektin və ya mediatorun qaydaları olacaqdır.

Mediasiya sorğusu digər Tərəfə göndərildikdən sonra 90 gün ərzində və ya tərəflərin mediasiya prosesində razılaşa biləcəyi digər müddət ərzində mübahisə həll edilmədikdə, mübahisə səlahiyyətli məhkəməyə təqdim edilir.[1]

[1] Müvafiq hallarda "məhkəməyə təqdim edilir" ifadəsinin əvəzinə "kommersiya arbitrajına təqdim edilir" ifadəsi yazıla bilər.